

Ölkə başçısı İlham Əliyev Türkiyənin səhiyyə nazirini qəbul edib

2



BMT Baş Assambleyasında Azərbaycanın qlobal səhiyyə təşəbbüslərindən danışılıb

2



Nazirlər Kabineti orqan transplantasiyası ilə bağlı üç sənəd qəbul edib

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 17-18 (753) 30 sentyabr 2022-ci il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Prezident İlham Əliyev Y.Gindes adına sanatoriyanı açdı



2

## Azərbaycan – Türkiyə səhiyyə əməkdaşlığı və birgə layihələri ətrafında səmərəli fikir mübadiləsi aparılıb



4

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onkoloji xəstə uşaqlara baş çəkib



4

## Bakıda Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisi keçirilib




6

## Səhiyyə naziri Teymur Musayev Vətən müharibəsində yaralanan veteranları ziyarət edib



5

*Aforizm*

*Az danışana çox qanun lazım deyil.*

*Xarilay*

# Prezident İlham Əliyev Y.Gindes adına sanatoriyanı açdı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda professor Y.Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.**

Sanatoriyanın yeni binası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən inşa olunub.

Səhiyyə naziri Teymur Musayev dövlət başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1914-cü ildən fəaliyyət göstərən professor Y.Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyası istifadə üçün tam hazır vəziyyətə gətirilib. Sanatoriya üçün 300 çarpayılıq beşmərtəbəli yeni bina inşa edilib. Səhiyyə müəssisəsində uşaqların sağlamlığa qovuşması üçün bütün imkanlar yaradılıb. Burada müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüa-diaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərəcək. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir.

Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq.

Prezident İlham Əliyev sanatoriyanın fizioterapiya, rentgen otaqlarında, kliniki laboratoriyada, yeməkxanada, akt zalında, kitabxanada, palatalarda, sinif otaqlarında yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, vərəm sağalan xəstəlik olsa da, dünyada ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. ÜST ekspertlərinin fikrincə, onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan ictimai səhiyyənin əsas məsələlərindən olan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edən ölkələrdən biridir. Ölkəmizdə vərəmlə mübarizə üzrə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.

## BMT Baş Assambleyasının 77-ci sessiyasında Azərbaycanın səhiyyə üzrə qlobal təşəbbüslərindən danışılıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Nyu-York şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 77-ci sessiyasının «Dönüş məqamı: bir-biri ilə əlaqəli çağırışların transformativ həlli yolları» mövzusunda Ümumi Müzakirələri çərçivəsində bəyanatla çıxış edib.**



Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, nazir öz nitqində başqa mövzularla yanaşı, səhiyyə sahəsində Azərbaycanın həm milli, həm də Qoşulmama Hərəkatının Sədri qismində qlobal təşəbbüslərindən də söz açıb.

Ceyhun Bayramov qeyd edib ki, dünya COVID-19 pandemiyasının gətirdiyi ciddi problemlərlə üzləşməkdə davam edir. Peyvəndləmənin miqyasının genişləndirilməsi və dünya əhalisinin yeni reallıqlara uyğunlaşmasının COVID-19 pandemiyasından sonrakı dövr üçün ümidlər yaratmasına baxmayaraq, ciddi problemlər hələ də qalmaqdadır: «Pandemiyanın səbəb olduğu bütün təcili və uzunmüddətli çağırışlar qlobal əməkdaşlıq və həmrəylik üçün hərtərəfli çərçivəni təmin edəcək və yüksək səviyyəli siyasi iştirakla dəstəklənən yeni mexanizmləri zəruri edir.

*(Davamı 3-cü səhifədə)*



## Ölkə başçısı İlham Əliyev Türkiyənin səhiyyə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul edib.**

Fahrettin Koca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Qonaq vurğulayıb ki, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında sarsılmaz birlik və qardaşlıq əlaqələri, bütün digər qurumlar kimi, səhiyyə nazirlikləri arasında da əməkdaşlıq üçün yol göstəricisidir və bu baxımdan ölkələrimizin nazirlikləri sıx əməkdaşlıq həyata keçirir.

Türkiyənin səhiyyə naziri qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması dərin sevinc hissi bəxş edir. Nazir şəhidlərlə bağlı başsağlığı verib, qazilərə şəfa diləyib. Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan Fahrettin Koca bu sənəddə əksini tapan hədəflər istiqamətində səhiyyə sahəsində də əlaqələri inkişaf etdirmək və dərinləşdirmək üçün çalışdıqlarını bildirib.

Türkiyəli nazir deyib ki, ölkəsində səhiyyə sahəsində əldə olunan təcrübəni və elmi bilikləri azərbaycanlı həmkarlarla bölüşmək qardaşlıq borcudur. O, dövlətimizin başçısının dəstəyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun əhəmiyyətindən danışıb.

Prezident İlham Əliyev Özbəkistanda Türkiyənin dövlət başçısı ilə görüşünü məmnunluqla xatırlayıb, dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğulayıb. Azərbaycan Prezidenti Şuşa Bəyannaməsinə toxunaraq, bunu münasibətlərimizin rəsmi təzahürü kimi qiymətləndirib, bu Bəyannamənin xalqlarımızın iradəsini, dövlətlərimizin maraqlarını əks etdirdiyini deyib.

Prezident İlham Əliyev həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə həkimləri tərəfindən qazilərimizin müalicəsinə görə minnətdarlığını bildirib.

Dövlət başçısı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı qeyd edib, bu baxımdan səhiyyə sahəsində də əlaqələrin təqdirəlayiq olduğunu deyib və Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun önəminə toxunub.

# Nazirlər Kabineti orqan transplantasiyası ilə bağlı üç sənəd qəbul edib

**Azərbaycan Respublikasının Nazirlər Kabineti ölkəmizdə donorluq və orqan transplantasiyası sahəsində fəaliyyəti tənzimləyən üç sənədi təsdiq edib.**

Baş Nazir Əli Əsədov bununla bağlı qərarlar imzalayıb.

Təsdiq edilmiş sənədlərdən biri **«Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası»**dır.

Qərar Azərbaycan Respublikasının ərazisində insan orqan və toxumalarının götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası qaydasını müəyyən edir.

Qaydaya əsasən canlı donordan donor orqanların götürülməsi cərrahi əməliyyat yolu ilə həyata keçirilir. Canlı və meyit donordan donor orqanların götürülməsi yalnız həkim-transplantoloqların reyestrinə daxil edilmiş həkim-mütəxəssislər tərəfindən aparılır.

Götürülmüş donor orqanlar əməliyyat otağında steril şəraitdə olan, bu məqsəd üçün ayrılmış xüsusi masanın üzərinə qoyulur, damarları kateterizasiya edilir və xüsusi konservləşdirici məhlulla yuyulur. Bu proses orqanın damarlarına vurulmuş məhlulun həmin damarlardan makroskopik təmiz və şəffaf şəkildə çıxmasına qədər davam etdirilir.

Donor orqanların transplantasiyası həkim-transplantoloqların reyestrinə daxil edilmiş mütəxəssis tərəfindən aparılır.

Transplantasiya məqsədilə canlı donordan götürülmüş donor orqanlar dərhal, saxlanılmadan və daşınmadan resipiyentə köçürülür. Sümük iliyini və kök hüceyrələrini dərhal transplantasiya etmək mümkün olmadıqda onların transplantasiya üçün hazırlanması, saxlanması və daşınması ilə bağlı tədbirlər görülür.

Donor orqanların hər biri üzrə onların xüsusiyyətləri nəzərə alınmaqla transplantasiya üçün götürülməsi, hazırlanması, saxlanması, daşınması prosesinin təşkilinə və transplantasiya metodu ilə tibbi yardım göstərilməsinə dair tələblər Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir.

Donor orqanları götürülməsindən, hazırlanmasından, saxlanmasından və daşınmasından sonra transplantasiya üçün yararsız hesab edilərsə, utilizasiya olunmaq üçün Nazirliyin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə göndərilir.

Qəbul olunmuş ikinci sənəd **«Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası»**dır.

Bu sənədlə transplantasiya məqsədilə donor orqanların idxalına və ixracına icazə alınması üçün müraciət edilməsi, müraciətlərə baxılma qaydası, idxala və ixraca dövlət nəzarətinin həyata keçirilməsi məsələləri tənzimlənir, donor orqanların idxalına və ixracına xüsusi icazə verilməsi barədə qərar formaları müəyyən edilir.




Donor orqanların transplantasiya məqsədilə idxalına və ixracına icazə alınması üçün, siyahısı Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə müəyyən edilmiş tibb müəssisələri həmin donor orqanlar gömrük ərazisinə gətirilməzdən və ya bu ərazidən aparılmazdan əvvəl bu Qərarın 1 və 2 nömrəli əlavələrində göstərilmiş formada ərizə ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzi publik hüquqi şəxsə müraciət edirlər. Donor orqanların transplantasiya məqsədilə idxalına icazə alınması üçün ərizəyə müvafiq sənədlər əlavə edilir.

Ərizənin qeydiyyata alındığı gündən 7 (yeddi) iş günü müddətində Koordinasiya Mərkəzi tərəfindən sənədlərə baxılır və bu Qərarın 3 və 4 nömrəli əlavələrində göstərilmiş formada transplantasiya məqsədilə donor orqanların idxalına və ya ixracına icazənin verilməsi barədə və ya bundan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edilir.

Donor orqanların idxalına və ya ixracına icazənin verilməsi barədə qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim olunur və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

Koordinasiya Mərkəzi tərəfindən transplantasiya məqsədilə donor orqanların idxalına və ixracına icazə verilməsi barədə qərar «Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazası»nda «Transplantasiya işi üzrə koordinasiya və monitorinq» altsisteminə daxil edilir və dərhal bu barədə məlumat elektron qaydada gömrük orqanına ötürülür.

Nazirlər Kabinetinin təsdiq etdiyi üçüncü sənəd **«Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi»**dir.

Qərar bu bazanın formalaşdırılmasının, aparılmasının, digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsaslarını, Vahid dövlət informasiya bazasının strukturunu, bazaya daxil olan məlumatların dairəsini, bazadan istifadə qaydasını müəyyən edir.

Vahid dövlət informasiya bazası orqan donorluğu və transplantasiyanın həyata keçirilməsi zamanı vahid uçotun aparılması, məlumatların elektronlaşdırılması, tibb müəssisələri tərəfindən düzgün informasiyanın daxil edilməsinə nəzarətin həyata keçirilməsi, habelə bu sahədə operativ əlaqələndirmənin təmin edilməsi məqsədilə məlumatların formalaşdırılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasını təmin edir.

Vahid dövlət informasiya bazasının aparılmasını Səhiyyə Nazirliyinin tabeliyində olan Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzi publik hüquqi şəxs həyata keçirir.

Vahid dövlət informasiya bazasının strukturu «Transplantasiya işi üzrə koordinasiya və monitorinq» altsistemindən, «Hesabatlar» altsistemindən və Qanunun 13-cü maddəsində göstərilən 10 reyestrdən ibarətdir. Bunlar ölümdən sonra donorluğa razılıq vermiş şəxslərin reyestri; ölümdən sonra donorluqdan imtina etmiş şəxslərin reyestri; canlı donorların reyestri; resipiyentlərin reyestri; sümük iliyi donorluğuna namizədlərin reyestri; süni orqan və material köçürülmüş şəxslərin reyestri; transplantasiyanı həyata keçirən tibb müəssisələrinin reyestri; donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin reyestri; transplantasiya üzrə koordinatorların reyestri və həkim-transplantoloqların reyestridir.

Vahid dövlət informasiya bazasının formalaşdırılmasının məqsədi orqan donorluğu və transplantasiyasının həyata keçirilməsi zamanı vahid uçotun aparılması, orqan donorluğu və transplantasiyası fəaliyyətinin təmin edilməsidir.

# BMT Baş Assambleyasının 77-ci sessiyasında Azərbaycanın səhiyyə üzrə qlobal təşəbbüslərindən danışılıb



*(Əvvəli 2-ci səhifədə)*

Azərbaycan ilk vaxtlardan etibarən həm milli, həm də Qoşulmama Hərəkatının Sədri qismində pandemiyaya qalib gəlmək üçün daha böyük qlobal həmrəyliyin tərəfdarı olub və bu məqsədlə bir sıra qlobal təşəbbüslər irəli sürüb. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına cavab olaraq BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsü BMT üzvlərinin geniş dəstəyini qazanıb. Həmçinin Qoşulmama Hərəkatı adından Azərbaycan üzv dövlətlərin böyük dəstəyi ilə BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında qəbul edilmiş COVID-19 peyvəndlərinə bərabər, əlverişli, vaxtında və universal əlçatanlığın təmin edilməsinə dair qətnamələri müzakirəyə çıxarıb».

Xarici işlər naziri vurğulayıb ki, Azərbaycan ölkə daxilində effektiv peyvəndləmə kampaniyası ilə yanaşı, ehtiyacı olan ölkələrə də əhəmiyyətli miqdarda COVİD-19 peyvəndləri bağışlayıb: «Biz pandemiya ilə mübarizə üçün 80-dən çox ölkəyə beynəlxalq yardım göstərmişik. Pandemiyanın nəticələrinin aradan qaldırılması istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi və COVID-19 pandemiyasından sonrakı qlobal bərpa üçün səylərimizin birləşdirilməsinə yönəlmiş fəaliyyətimizi davam etdirəcəyik. Azərbaycan Prezidenti bununla əlaqədar olaraq BMT-nin pandemiyadan sonrakı qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü ilə çıxış edib və bu, yaxın aylarda Bakıda keçiriləcək COVID-19 pandemiyası ilə mübarizə üzrə Qoşulmama Hərəkatının Təmas Qrupunun qarşıdan gələn Zirvə Görüşündə müzakirəyə çıxarılacaq mövzulardan biri olacaq».

Ceyhun Bayramov bildirib ki, müstəqilliyini əldə etdikdən sonra Azərbaycan uzun bir yol keçərək, öz torpağında təhlükəsizlik çağırışları ilə üzləşmiş bir ölkədən qlobal təhlükəsizliyə töhfə verən ölkəyə çevrilib. Bu yolda Azərbaycan BMT-nin güclü və etibarlı tərəfdaşı olub, onu qətiyyətlə dəstəkləyib və onun fəaliyyətinə fəal töhfə verib. Ölkəmiz həm milli imkanları, həm də Qoşulmama Hərəkatının hazırkı sədri kimi sülh və təhlükəsizliyə, beynəlxalq hüquqi nizamın möhkəmləndirilməsinə, dialoqun, qlobal həmrəyliyin və çoxtərəfliliyin gücləndirilməsinə töhfə verməyə davam etməkdə maraqlıdır.

Çıxışının sonunda Azərbaycan Respublikasının xarici işlər naziri deyib: «Ərazilərini uzunmüddətli xarici hərbi işğaldan azad edən Azərbaycan onların mümkün olan ən yüksək standartlara uyğun olaraq tam şəkildə yenidən qurulması və yenidən inteqrasiyası istiqamətində səylərini əsirgəməməkdə əzmlidir. Eyni zamanda, ölkəmiz istər qlobal enerji təhlükəsizliyinə töhfə vermək, istər COVID-19 pandemiyasına qarşı mübarizəyə kömək etmək, istərsə də davamlı inkişafı təşviq etmək kimi, bütün müvafiq sahələrdə beynəlxalq birliyin məsul üzvü rolunu oynamağa davam edəcək. Biz inanırıq ki, qloballaşan dünyada heç bir ölkə ada deyil və biz buna uyğun hərəkət edirik».

# Parlamentin Səhiyyə komitəsinin payız sessiyasında ilk iclası keçirilib

**Milli Məclisin Səhiyyə komitəsinin üzvləri 2022-ci ilin payız sessiyasında ilk iclasa toplaşıblar.**

İclası açan komitə sədri Əhliman Əmiraslanov 2022-ci ilin payız sessiyasında deputatlara uğurlar diləyib.

Əhliman Əmiraslanov Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatlardan söz açaraq, döyüş toqquşmalarında şəhid olan qəhrəman hərbçilərimizə rəhmət, yaxınlarına səbir diləyib, yaralılarımızın tezliklə sağalmalarını arzulayıb. İclas iştirakçıları Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən, Ermənistanın son təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olan Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.



Sonra komitə sədri iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib.

İlk olaraq müzakirəyə Milli Məclisin 2022-ci il yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat təqdim olunub. Komitə sədri bildirib ki, hesabat müddətində komitənin 13 iclası keçirilib, həmin iclaslarda 14 məsələyə baxılıb. Əhliman Əmiraslanov baxılan məsələlər haqqında fikirlərini söyləyib, qəbul olunan qanunların əhəmiyyətindən danışıb.

Bundan başqa, Səhiyyə komitəsi Əmək və sosial siyasət komitəsi ilə birgə "Ölkədə icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər, hazırkı vəziyyət və gələcək planlar" mövzusunda Şuşa şəhərində dinləmə keçirib.

Qeyd edilib ki, hesabat dövründə komitəyə daxil olan 150-yə yaxın ərizə və şikayətə baxılıb, müraciətlərdə qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb, həmçinin komitənin sədri tərəfindən 53 nəfər vətəndaş qəbul edilib.

Gündəliyin ikinci məsələsi olan Milli Məclisin Səhiyyə komitəsinin 2022-ci ilin payız sessiyası üçün iş planı ilə bağlı Əhliman Əmiraslanov bildirib ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin, o cümlədən Büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub.

Həmçinin «Reproduktiv sağlamlıq haqqında» qanun layihəsinin müzakirəsi, «Koronavirus (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlər», «İcbari tibbi sığortanın tətbiqi ilə bağlı normativ-hüquqi aktlara dəyişikliklərin edilməsi», «Tibbi tullantıların idarə edilməsi», dərman preparatları mövzularında dinləmələrin keçirilməsi planlaşdırılıb.

Komitə sədri gündəliyin üçüncü məsələsinin Vergi Məcəlləsində, «Sosial sığorta haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Tibbi sığorta haqqında» və «Daşınar əmlakın yüklülüyü haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu və komitənin layihənin «Tibbi sığorta haqqında» Qanuna təklif olunan dəyişiklikləri müzakirə edəcəyini bildirib.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev layihə ilə bağlı məlumat verib.

Adil Vəliyev sənədin Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 2021-ci il 3 dekabr tarixli Qanuna uyğun hazırlandığını diqqətə çatdırıb. Bildirib ki, layihədə əsasən iki kateqoriya üzrə – Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslərin (toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq və digər oxşar fəaliyyətlə, məişət avadanlığı təmiri ilə, çəkməçi, dərzi, bərbər fəaliyyəti ilə məşğul olan şəxslər və sair) və Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən fiziki şəxslərin (mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə ölkə ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər) icbari tibbi sığorta ilə əhatə olunması nəzərdə tutulub. Sənədin qəbulu ilə bu kateqoriyadan olan fiziki şəxslər minimum əməkhaqqının 4 faizi miqdarında məbləğ ödəməklə icbari tibbi sığortanın xidmətlərindən bəhrələnə biləcəklər.

İclasda Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri İlham Məmmədov, Sədaqət Vəliyeva, Məlahət İbrahimqızı, Kamilə Əliyeva, Kəmaləddin Qafarov gündəlikdəki məsələlərlə bağlı çıxış ediblər. Deputatlar icbari tibbi sığortanın həyata keçirilməsində vətəndaş məmnunluğunun artırılması, icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi, dərman bazarının keyfiyyətinin və əlçatanlığının yaxşılaşdırılması, orqanların transplantasiyası kimi səhiyyənin aktual məsələləri ilə bağlı öz fikirlərini bildirib, rəy və təkliflərini səsləndiriblər. Komitə üzvləri şəhid ailələri və qazilərə tibb xidmətlərinin göstərilməsinin, ailə həkimi və digər sahələrin qanunla tənzimlənməsinin və «Əhalinin sağlamlığı haqqında» Qanunun ekspertizasının aktuallığını da dilə gətiriblər.

Milli Məclisin 2022-ci il yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat qənaətbəxş hesab edilib. Komitənin 2022-ci il payız sessiyası üçün iş planı təsdiqlənib. Gündəlikdəki qanun layihəsi birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onkoloji xəstə uşaqlara baş çəkib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlarla görüşüb.**

Leyla Əliyeva bu barədə rəsmi instaqram səhifəsində paylaşım edib.

Milli Onkologiya Mərkəzinin nəzdindəki Uşaq Onkologiya Klinikasında keçirilən görüş zamanı Leyla Əliyeva uşaqların səhhəti və müalicələrinin gedişi ilə maraqlanıb.

Klinikada müalicə olunan uşaqlara hədiyyələr təqdim edilib.




# Azərbaycan – Türkiyə səhiyyə əməkdaşlığı və birgə layihələri ətrafında səmərəli fikir mübadiləsi aparılıb

**Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana ikigünlük işgüzar səfəri çərçivəsində Azərbaycanın Səhiyyə Nazirliyində görüş keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tərəflər Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri, səhiyyə sahəsində əməkdaşlıq, həmçinin birgə layihələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Toplantını giriş sözü ilə açan Teymur Musayev bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də qardaş ölkə ilə əməkdaşlığın nümunəvi olduğunu diqqətə çatdırıb.

Nazir səhiyyə sisteminin rəqəmsallaşdırılmasını Azərbaycan Səhiyyə Nazirliyinin qarşısına qoyulan prioritet məsələlərdən biri olduğunu vurğulayıb: «Azərbaycan Səhiyyə Nazirliyinin nümayəndə heyətinin may ayında qardaş ölkəyə işgüzar səfəri çərçivəsində türkiyəli həmkarlarımızla rəqəmsal səhiyyə sahəsində dəfələrlə müzakirələrimiz, görüşlərimiz olub və onların dəstəyini hiss edirik. Bu sahədə qardaş Türkiyənin təcrübəsi əvəzsizdir. Rəqəmsallaşdırmada Türkiyə modeli dünyada liderlərdən biridir».

COVID-19 pandemiyası mövzusuna toxunan Azərbaycanın səhiyyə naziri bu dövrdə ölkələrimiz arasında əməkdaşlığın daha da mütəmadi xarakter aldığını vurğulayıb.

Teymur Musayev müasir Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən səhiyyə qurumlarımız arasında rəsmi münasibətlərin qurulmasını qeyd edib:

«Ölkəmizdə ilk dəfə təşkil olunan Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və Sərgisi bunun bariz nümunəsidir. Əminəm ki, əməkdaşlığımız bundan sonra da yüksələn xətlə davam edəcək və bu forum investorlar üçün yeni imkanlar yaradacaq».

Həmçinin Teymur Musayev birgə biznes forumun ənənəvi olacağına ümidvar olduğunu bildirib. Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Fahrettin Koca vurğulayıb ki, möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri bizim birlik və həmrəyliyimizin bariz göstəricisidir.

Türkiyəli nazir səhiyyə sahəsində ölkələrimiz arasında sıx əlaqələrin mövcüdluğunu diqqətə çatdırıb. Xatırladıb ki, bu ilin may ayında «Türkiyə Respublikası Səhiyyə Nazirliyi ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi arasında 2022-2023-cü illər üçün Əməkdaşlıq üzrə Yol Xəritəsi» imzalanıb. Bu sənədin gələcək əməkdaşlıq istiqamətində əhəmiyyətini vurğulayan Türkiyənin səhiyyə naziri onun ölkələrimizin səhiyyə sektorunun inkişafı yolunda mühüm rol oynayacağına inamını ifadə edib.

Çıxışının sonunda Fahrettin Koca azərbaycanlı həmkarını bu ilin oktyabrında İstanbulda keçiriləcək Türk Tibb Dünyası Konqresinə dəvət edib.

# Türkiyə səhiyyə naziri Fahrettin Koca Azərbaycanda işgüzar səfərdə olub

**Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana ikigünlük işgüzar səfəri baş tutub.**

Əvvəlcə Türkiyə nümayəndə heyəti Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevlə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüb, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyublar.



Qonaqlar həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə şəhid olan türk əsgərlərinin xatirəsinə ucaldılmış «Türk şəhidliyi» abidəsini ziyarət ediblər. Abidənin önünə əklil və gül dəstələri qoyulub.

Sonra Fahrettin Koca «Türk şəhidliyi» abidəsinin «Xatirə kitabına» öz ürək sözlərini yazıb.

Səfər çərçivəsində Türkiyə səhiyyə naziri görüşlər keçirib, Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və Sərgisində iştirak edib.

Qonaqlar Azərbaycan tarixinin və mədəniyyətinin simvolu olan Şuşa şəhərini də ziyarət ediblər. Onların Azərbaycan mədəniyyətinin paytaxtı ilə tanışlığı ölkəmizin tanınmış şəxsiyyətləri Bülbül, Xurşidbanu Natəvan və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhər mərkəzi meydanından başlayıb. Onlara şəhər və güllələnmiş heykəllər barədə ətraflı məlumat verilib.

Sonra Türkiyə Səhiyyə Nazirliyinin nümayəndə heyəti Şuşa qalası, Natəvan bulağı, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Cıdır düzü ilə tanış olublar.

Yuxarı Gövhər Ağa məscidini ziyarət edən qonaqlar cümə namazı qılıblar. Vətən şəhidlərinin ruhlarına rəhmət və dualar oxunub.

Türkiyənin səhiyyə naziri Azərbaycanın mədəniyyət paytaxtının gözəlliyinə heyran olduğunu bildirərək, Şuşanın azad edilməsinin tarixi əhəmiyyətini vurğulayıb. Fahrettin Koca uzun illər Ermənistanın işğalı altında olan ərazilərin, o cümlədən Şuşa şəhərinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edilməsindən böyük sevinc və qürur hissi keçirdiyini qeyd edib.

# Əhalinin tibbi sığorta imkanlarını artırmaq məqsədilə Memorandum imzalanıb



**Əhalinin tibbi sığorta imkanlarının artırılması məqsədilə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və «Azərbaycan Sığortaçılar Assosiasiyası» İctimai Birliyi arasında «Əməkdaşlıq haqqında Memorandum» imzalanıb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilir ki, sənədi səhiyyə naziri Teymur Musayev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri Zaur Əliyev və «Azərbaycan Sığortaçılar Assosiasiyası» Müşahidə Şurasının sədri Azər Əliyev imzalayıblar.

Əhalinin sağlamlığının qorunması, tibbi sığorta imkanlarının artırılması nəticəsində səhiyyə xidmətlərinin səmərəli təşkili, bu sahədə dayanıqlı iqtisadi inkişafa nail olunması, dövlət və özəl sığorta subyektləri arasında əməkdaşlıq münasibətlərinin inkişafı Memorandumun əsas məqsədlərindəndir. Eyni zamanda, sənəddə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və özəl sığorta şirkətləri arasında əməkdaşlıq münasibətlərinin gücləndirilməsi, məlumat mübadiləsinin və maarifləndirmə tədbirlərinin təşkili və digər zəruri tədbirlərin həyata keçirilməsi əks olunub.

Memorandumda qeyd olunan bəndlərin icrası məqsədilə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və «Azərbaycan Sığortaçılar Assosiasiyası» İctimai Birliyinin təqdimatı əsasında özəl sığorta şirkətlərinin nümayəndələrindən ibarət İşçi Qrup yaradılır.

İşçi Qrupa tibbi sığorta sahəsində dövlət və özəl sektorların əməkdaşlığı, icbari tibbi sığorta ilə əhatə olunan tibbi xidmətlər sahəsində maarifləndirici təlimlərin təşkili, özəl sığorta şirkətlərinin icbari tibbi sığorta ilə əhatə olunmayan tibbi xidmətlər üzrə sığorta təkliflərinin verilməsində maraqlarının artırılması ilə bağlı tədbirlər görmək, tamamlayıcı tibbi sığorta sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, inzibatçılığın tətbiqi zamanı qarşıya çıxan problemlərin araşdırılması və həllinə dair təkliflər vermək tapşırılıb.

# Səhiyyə naziri Teymur Musayev Vətən müharibəsində yaralanan veteranları ziyarət edib

**Səhiyyə naziri Teymur Musayev Buzovna qəsəbəsində yerləşən Sanator-Kurort Reabilitasiya Mərkəzində bərpa-müalicə xidmətlərindən yararlanan Vətən müharibəsi veteranlarını ziyarət edib.**



Nazirliyin mətbuat xidmətindən bildirilir ki, səmimi şəraitdə keçən görüşdə Teymur Musayev 44 gün davam edən Vətən müharibəsinin təxminən otuz illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndiyini xatırladıb. O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfərin tariximizə qızıl hərflərlə yazıldığını vurğulayıb.

Nazir şəhid ailələrinə və veteranlara qayğının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu bildirib. «Xalqımız Vətən uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini dərin ehtiramla anır», — deyən nazir fikirlərini belə tamamlayıb: «Hər birimiz Vətən uğrunda canlarından, qanlarından keçən və şəhidlik zirvəsinə ucalan igid Azərbaycan övladlarına həyatımızın sonuna qədər borcluyuq. Qələbəni əsgər və zabitlərimizin döyüşlərdə böyük fədakarlığı hesabına qazandıq. Bizə bəxş etdiyiniz bu Qələbəyə görə Sizə minnətdarıq».

# Babək rayonunda yeni həkim ambulatoriyası açılıb



**Naxçıvan Muxtar Respublikasının Babək rayonunun böyük yaşayış məntəqələrindən olan Sirab kəndində yeni sosial obyektlər istifadəyə verilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən verilən məlumata görə, bunların arasında həkim ambulatoriyası da var.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov həkim ambulatoriyasında aparılan təmir işləri ilə maraqlanıb, yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, səhiyyə müəssisəsinin dam örtüyü, fasadı və iş otaqları təmir olunub, pərdələr və xalçalar yenilənib. Binanın həyətində abadlıq işləri görülüb.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Rufan Orucov kənddə görülən işlərdən bəhs edib.

Ambulatoriyanın baş həkimi Ülkər Quliyeva kollektiv adından minnətdarlıq edib, bundan sonra da yaradılan şəraitdən istifadə edərək kənd əhalisinin sağlamlığının keşiyində duracaqlarına söz verib.

Ali Məclisin Sədri peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi barədə tapşırıqlar verib.

Sonra kənd sakinləri ilə görüşən Vasif Talıbov onları görülən işlər münasibətilə təbrik edib.

# Bakıda Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisi keçirilib

**Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin səhiyyə nazirliklərinin dəstəyi ilə Bakıda Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu keçirilib. Forum çərçivəsində səhiyyə sərgisi də təşkil olunub.**

Tədbirin açılış mərasimində əvvəlcə Azərbaycan və Türkiyə Dövlət Himnləri səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Mərasimdə ilk çıxış edən **Azərbaycan səhiyyə naziri Teymur Musayev** Türkiyə Respublikası ilə münasibətlərin Azərbaycan hökuməti üçün hər zaman xüsusi xarakter daşıdığını qeyd edib. O, öz nitqində vurğulayıb ki, ilk dəfə təşkil olunan Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisi qardaş ölkələr arasındakı münasibətlərin inkişafına ən yüksək səviyyədə verilən dövlət dəstəyinin növbəti təzahürüdür: «Bu gün ölkələrimizin səhiyyə qurumları və tibb ictimaiyyəti üçün əlamətdar bir gündür. Azərbaycan və Türkiyə dövlət başçılarının himayəsi altında ölkələrimiz arasında hər sahədə inkişaf edən münasibətlər səhiyyə sektoruna da öz müsbət təsirini göstərməkdədir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixin ən çətin anlarında xalqlarımız birgə olub, qardaşlıq dəstəyini əsirgəməyib. Müasir dövrdə istər COVID-19 pandemiyası ilə mübarizədə, istər 44 günlük şanlı Vətən müharibəsində, istərsə də müharibədən sonrakı proseslərdə biz bunun bir daha şahidi olduq».

Teymur Musayevin sözlərinə görə, Vətən müharibəsindən ötən müddətdə 200-ə yaxın hərbçimiz «YAŞAT» Fondunun dəstəyi ilə müalicə üçün Türkiyəyə göndərilib, onların böyük əksəriyyəti müalicələrini başa vuraraq vətənə geri dönüblər. Sağlamlıqlarına qovuşmuş şəxslərin arasında hər zaman dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan şəhidlərimizin ailə üzvləri də yer alır. Həmçinin Türkiyəli mütəxəssislər Azərbaycana dəvət olunaraq burada da müharibədə xəsarət almış şəxslərin sağlamlıqlarının bərpası prosesinə aktiv cəlb olunurlar.

Nazir həmçinin qeyd edib ki, bu gün Azərbaycan Tibb Universiteti Türkiyənin 20-yə yaxın universiteti ilə əməkdaşlıq edir: «Tibb təhsili sahəsində qarşılıqlı əməkdaşlığımızın bir göstəricisi də odur ki, hazırda 700-dən çox Türkiyə vətəndaşı Azərbaycan Tibb Universitetində ali tibb təhsili alır».

Ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını qeyd edən Teymur Musayev səhiyyə biznes forumu və sərgisinin Türkiyə biznes subyektlərinin Azərbaycanın səhiyyə sektoruna artan investisiya maraqlarına xidmət edəcəyinə ümidvar olduğunu bildirib. Xatırladıb ki, bu ilin mayında Ankarada Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikası Səhiyyə Nazirliyi arasında imzalanmış Əməkdaşlıq üzrə Yol Xəritəsində biznes forumların hər iki ölkədə mütəmadi təşkili nəzərdə tutulur.

T.Musayevin sözlərinə görə, hazırda xəstəxanaların təchizatının böyük əksəriyyətini Türkiyə istehsalı olan tibbi avadanlıq və alətlər təşkil edir. Türkiyənin 1000-dən çox dərman vasitəsi Azərbaycanda dövlət qeydiyyatından keçib. «Forumun ölkələrimiz arasında əczaçılıq və tibbi avadanlıqlar sahəsində mövcud əlaqələrinin inkişafında əhəmiyyətini yüksək qiymətləndiririk. Əməkdaşlığımızın bundan sonra da yüksələn xətlə davam edəcəyinə və forumun investorlar üçün yeni imkanlar yaradacağına inanırıq. Səhiyyə sektorunda bu kimi qarşılıqlı fəaliyyət vətəndaşlarımızın səhiyyə sistemindən məmnunluğunun artırılmasına, əhalinin sağlamlığının yaxşılaşdırılmasına, həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək», – deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

Öz çıxışında **Türkiyənin səhiyyə naziri Fahrettin Koca** ilk olaraq Ermənistanın təxribatları nəticəsində şəhid olan hərbi qulluqçuların ailələrinə başsağlığı verib: «Ötən həftə Ermənistanın hücumları nəticəsində şəhid olan əsgərlərimizə Allahdan rəhmət, ailələrinə və türk millətinə səbir arzulayıram».




O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və qardaş türk xalqının salamlarını tədbir iştirakçılarına çatdırıb. 28 illik işğalın Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə sona çatmasını xüsusi qeyd edən türkiyəli nazir 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərliyi ilə azad edilən və türk dünyasının qədim şəhəri olan Bakıda olmaqdan məmnunluğunu bildirib: «104-cü qurtuluş ildönümünü qeyd etdiyimiz can Azərbaycanın paytaxtında olmaq bizim üçün böyük qürurdur».

Fahrettin Koca vurğulayıb ki, Türkiyə və Azərbaycan dövlətləri iki önəmli güc mərkəzidir: «Bu işbirliyinin sadəcə sözdə deyil, fəaliyyətdə də nə qədər gerçək olduğunu son günlərdə yaşadığımız hadisələrlə də bir daha sübut etdik. Hər sahədə olduğu kimi, tibb sahəsində əlaqələr yüksələn xətlə davam edir. Bu sahədə görüləcək işlərimiz hələ çoxdur».

«Türkiyənin səhiyyə sahəsində birgə biznes forumunun keçirilməsində zəngin təcrübəsi var. Forumda təmsil olunan ölkələrin özəl tibb şirkətləri, həmçinin səhiyyədə maliyyə mexanizminin təkmilləşdirilməsi və investisiya imkanları müzakirə olunur», — deyə Türkiyənin səhiyyə naziri fikirlərinə yekun vurub.

Daha sonra Teymur Musayev və Fahrettin Koca sərginin stendləri ilə tanış olub, sərgidə iştirak edən şirkətlərin nümayəndələri ilə əldə etdikləri nailiyyətlər və gələcək inkişaf proqramları barədə söhbət ediblər.

Sonda Türkiyə və Azərbaycanın səhiyyə nazirləri KİV nümayəndələrinin suallarını cavablandırıblar.

O cümlədən, səhiyyə naziri Teymur Musayev Türkiyə Sağlıq Elmləri İnstitutunun və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı Sağlamlıq Mərkəzi ilə birgə həyata keçirdiyi «TURKOVAC» vaksininin üçüncü faza klinik sınaqları barədə məlumat verib. Bildirib ki, hazırda ilkin məlumatlar toplanaraq daha dəqiq və dərin təhlil üçün Türkiyə tərəfinə təhvil verilib.

Səhiyyə biznes forumu və sərgisi öz işini panel sessiyalarla davam etdirib. Mövzu və dinlənilən məruzələr ətrafında geniş müzakirələr aparılıb.

İkigünlük forumun ikinci günündə **Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov**un moderatorluğu ilə «Səhiyyədə tədqiqat və inkişaf, peyvənd tədqiqatlarında əməkdaşlıq» mövzusunda panel sessiya keçirilib.

Nadir Zeynalov tədqiqat və inkişaf etdirmə barədə məlumat verərək, bu işlərin peyvəndlərin hazırlanması prosesində mühüm rol oynadığını vurğulayıb. Əksər texnoloji şirkətlərin bazarda rəqabət qabiliyyətini saxlamaq məqsədilə yeni məhsulların ortaya çıxarılması, mövcud məhsulların yaxşılaşdırılması üçün tədqiqat və inkişafa dayanıqlı sərmayəyə yönləndirilməsini bildirib. Tibb sahəsində bunun əsasən əczaçılıq sektorunda tətbiq edilməsi, hər il yeni dərman formullarının dünya bazarına çıxarılması qeyd olunub.

«Səhiyyənin rəqəmsallaşdırılması, vətəndaşlara səmərəli xidmət və gələcək perspektivlər» panel sessiyasında çıxış edən **Azərbaycan səhiyyə nazirinin səhiyyənin rəqəmsallaşdırılması üzrə müşaviri Rüfət Hacıəlibəyov** səhiyyə sisteminin təkmilləşdirilməsinin ölkəmiz üçün prioritet məsələ olduğunu vurğulayıb. Onun sözlərinə görə, dövlət başçısının müvafiq Fərmanının icrası məqsədilə «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupu nəzdində «Rəqəmsal səhiyyənin tətbiqinin genişləndirilməsi» işçi altqrupu yaradılıb. İmzalanmış Fərmanda səhiyyə və tibbi sığorta sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, şəffaflığın və hesabatlılığın artırılması, rəqəmsal səhiyyənin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyənləşdirilib.

Panel sessiyalarda Türkiyə Səhiyyə İnstitutunun (TUSEB) direktoru Erhan Akdoğanın, TUSEB-in Peyvənd İnstitutunun direktoru Ateş Karanın, Azərbaycan Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyevin və digərlərinin məruzələri dinlənilib, çıxışlar ətrafında geniş müzakirələr aparılıb.

# Səhiyyə və tibb elmi sahəsində Azərbaycan-Litva əməkdaşlığının perspektivləri müzakirə olundu



**Səhiyyə Nazirliyində Azərbaycanda üçgünlük işgüzar səfərdə olan Litva səhiyyə nazirinin müavini xanım Ausra Bilotiene-Motiejuniene ilə görüş keçirilib. Görüşdə həmçinin Litvanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Egidius Navikas da iştirak edib.**

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən söhbət zamanı səhiyyə və tibb elmi sahəsində Azərbaycan-Litva əməkdaşlığının mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.

Qonaqları salamlayan **səhiyyə naziri Teymur Musayev** ölkələrimiz arasında bir çox sahələrdə, o cümlədən səhiyyə və tibb elmi sahəsində məhsuldar əməkdaşlıq əlaqələrinin mövcudluğunu vurğulayıb: «Dost ölkələrin səhiyyəsinin səmərəliliyini artırmaq məqsədilə tibb təhsili sahəsində qarşılıqlı fəaliyyət üçün bütün zəruri vasitələr mövcuddur. Həmçinin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün optimal şərait var».

Teymur Musayev milli səhiyyə müəssisələri arasında təcrübə mübadiləsi və əczaçılıq sənayesində əlaqələrin genişləndirilməsi üçün də böyük potensialın olduğunu qeyd edib: «Bizim üçün Litvanın milli səhiyyə müəssisələrinin restrukturizasiyasında və Avropa standartlarına cavab verən reabilitasiya xidmətlərinin təkmilləşdirilməsi sahəsində təcrübəsi önəmlidir».

Səmimi qəbula görə təşəkkürünü bildirən **xanım Ausra Bilotiene-Motiejuniene** ölkəsinin Azərbaycanda tibb təhsili sisteminin beynəlxalq səviyyədə qəbul olunmuş metodologiya və standartlara uyğun modernləşdirilməsinə hər cür töhfə verməyə hazır olduğunu qeyd edib.

Xanım Ausra Bilotiene-Motiejuniene xatırladıb ki, bu ilin may ayında Litvanın Sağlamlıq Elmləri Universiteti ilə Azərbaycan Tibb Universiteti arasında əməkdaşlıq Memorandumu imzalanıb. «Ümid edirəm ki, bu sənəd ölkələrimiz arasında tibbi əməkdaşlığın genişlənməsinə öz töhfəsini verəcək», — deyə Litvanın səhiyyə nazirinin müavini əlavə edib.

Görüşdə həmçinin tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi məsələləri müzakirə edilib, tərəflərin qarşılıqlı fəaliyyəti üçün konkret addımlar təklif olunub.

# Səhiyyə Nazirliyində ÜST-nin Qiymətləndirmə Missiyasının nümayəndə heyəti ilə görüş keçirilib

**Azərbaycan səhiyyəsində səhiyyə sistemini gücləndirmək və universal tibbi təminata nail olmaq məqsədilə əhəmiyyətli dəyişikliklər həyata keçirilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yerli tərəfdaşlarla sıx əməkdaşlıq edərək, bu sahədə Azərbaycana fəal dəstək olur. Ehtiyacların qiymətləndirilməsi, ilkin səhiyyə, xəstəxana xidmətləri və tibb işçiləri üçün təlimlər sahəsində dəstəyə ehtiyac olan istiqamətlərin müəyyənləşdirilməsi məqsədilə ÜST-nin ölkə ofisi Azərbaycana ekspert missiyası təşkil edib.**



Səhiyyə Nazirliyində ÜST-nin Qiymətləndirmə Missiyasının ölkəmizdə işgüzar səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini deyib. Onun sözlərinə görə, 30 il ərzində qarşılıqlı əməkdaşlıq şəraitində mühüm işlər görülüb, ölkə, regional və qlobal səviyyələrdə uğurlu layihələr həyata keçirilib.

ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klügenin Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyev ilə və Səhiyyə Nazirliyində keçirilən görüşləri xatırladan Teymur Musayev nüfuzlu səhiyyə təşkilatının regional direktorunun ölkəmizə səfərinin əlaqələrimizə töhfə verəcəyinə əminliyini ifadə edib.

Nazir COVID-19-la mübarizədə ölkə daxilində görülən işləri, bu kontekstdə beynəlxalq müstəvidə Azərbaycanın göstərdiyi yardım və irəli sürdüyü təşəbbüsləri qeyd edib. Vurğulanıb ki, Azərbaycanın pandemiya ilə mübarizədə gördüyü işlər və əldə etdiyi nailiyyətlər ÜST-nin baş direktoru Tedros Gebreyesus tərəfindən də yüksək qiymətləndirilib.

Teymur Musayev ÜST-nin Azərbaycan üzrə nümayəndəliyinin ölkə səhiyyəsinin təkmilləşdirilməsi və müasirləşdirilməsi işində fəallığını qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən ÜST-nin ölkəmizdəki nümayəndəliyinin əməkdaşı Halil İbrahim Durak qeyd edib ki, son 5 ildə Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi məqsədilə islahatların aparılması və tibbi xidmətlərlə hərtərəfli əhatəyə nail olunması istiqamətində mühüm işlər görülüb. Vurğulanıb ki, Azərbaycanda ilkin səhiyyə xidmətinin gücləndirilməsi ÜST üçün dəyişməz prioritetdir.

Bundan əlavə, ÜST-nin ölkəmizdəki nümayəndəliyi Azərbaycan hökumətinə COVID-19-a hazırlıq və cavab tədbirləri, infeksiyaların qarşısının alınması və nəzarət, təcili tibbi yardım sistemi, fövqəladə hallarda psixi sağlamlıq və psixososial dəstək və digər sahələrdə dəstək verir.

Qeyd edək ki, 9 beynəlxalq ekspertdən və ÜST Azərbaycan ofisinin 8 tibb mütəxəssisindən ibarət Qiymətləndirmə Missiyasının məqsədi Azərbaycanda səhiyyə işçi qüvvəsinin inkişafını, ilkin səhiyyə xidməti sahəsində ÜST-nin dəstəyini uğurlu planlaşdırmaq, səhiyyə sisteminin müxtəlif strukturlarının və funksiyalarının resurslarını təhlil etmək, davam edən “Azərbaycanda ilkin səhiyyə xidməti üzrə nümayiş layihəsi” üçün tövsiyələr vasitəsilə ölkəmizdə ilkin səhiyyə xidmətinin gələcək təşkili ilə bağlı baxışlara töhfə vermək, dövlət və özəl xəstəxanaları ziyarət edərək xəstəxana xidmətlərinin göstərilməsini qiymətləndirməkdir.

# Səhiyyə Nazirliyi ilə UNICEF arasında əməkdaşlığın prioritet istiqamətləri müzakirə olunub

**Səhiyyə Nazirliyində Birləşmiş Millətlər Təşkilatının (BMT) Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens ilə görüş keçirilib.**

Qonaqları salamlayan nazir Teymur Musayev Azərbaycan ilə UNICEF arasında əlaqələrin çoxşaxəli və səmərəli olduğunu vurğulayıb: «Hökumət və vətəndaş cəmiyyəti ilə birgə əməkdaşlıq edən BMT-nin Uşaq Fondu səhiyyə, təhsil, gənclərin humanitar fəaliyyət sahəsində iştirakı, ana və uşaqların sağlamlığının qorunması kimi sahələrin inkişafına mühüm töhfələr verib. Ötən müddət ərzində qarşılıqlı əməkdaşlıq şəraitində vacib işlər görülüb, ölkə və regional səviyyələrdə uğurlu layihələr həyata keçirilib».

Teymur Musayev əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Öz növbəsində Aleks Haykens xatırladıb ki, UNICEF Azərbaycanda fəaliyyətə 1993-cü ildə başlayıb. Qurumun Azərbaycanda həyata keçirdiyi ilk layihələr zamanı əsas diqqət vaksinasiya, səhiyyə, reabilitasiya, təhsil və uşaqların müdafiəsi ilə bağlı aktual problemlərə yönəldilib. Azərbaycan ilə UNICEF arasında tərəfdaşlıq səviyyəsini yüksək qiymətləndirən Aleks Haykens 2021-2025-ci illər üzrə ölkə Əməkdaşlıq Proqramının birgə fəaliyyətimizin yeni dövrü üçün mühüm rol oynadığını qeyd edib.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə prioritet əməkdaşlıq istiqamətləri və 2023-2024-cü illər üçün İş Planının hazırlanması nəzərdən keçirilib. Belə ki, ana və uşaq sağlamlığı, səhiyyədə informasiya sistemlərinin gücləndirilməsi, COVID-19 qlobal pandemiyası ilə bağlı uğurlu fəaliyyətlərin dəstəklənməsi, uşaqlarda inkişaf problemləri və erkən müdaxilə xidmətlərinin tətbiqi, eləcə də sektorlararası fəaliyyətin əlaqələndirilməsi barəsində müzakirələr aparılıb. Bundan əlavə, tərəflər UNICEF və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Səhiyyə Nazirliyi və ölkənin digər səhiyyə orqanları ilə birgə həyata keçiriləcək ilkin səhiyyə xidmətinin gücləndirilməsinə dəstək üzrə gələn ildən başlayaraq icra ediləcək 5 illik proqramın İş Planını müzakirə ediblər.

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyə sahəsində Beynəlxalq Proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyasının (ÖƏK) 56-cı iclası keçirilib.**

Toplantının məqsədi İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun maliyyə dəstəyi ilə ölkəmizdə həyata keçirilən və Səhiyyə Nazirliyinin Əsas Resipiyent olduğu İİVVərəm qrantı çərçivəsində bu ilin yanvar-iyun ayları ərzində görülmüş işlər və fəaliyyətlər haqqında məlumat verilməsi və müzakirələr aparılması olub.

# Səhiyyə sahəsində Beynəlxalq Proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyasının toplantısı keçirilib

İclasda Səhiyyə Nazirliyinin və aparıcı səhiyyə qurumlarının məsul şəxsləri, ÖƏK-ə üzv olan qurumların, beynəlxalq təşkilatların, həmçinin vərəm və İİV-lə mübarizə üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş sözü ilə səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edib. Qlobal Fondun ölkəmizə verdiyi dəstəyi və tövsiyələri yüksək qiymətləndirən N.Zeynalov nazirlik tərəfindən görülmüş işlər barədə qısa məlumat verib.

İclasda ÖƏK Katibliyi tərəfindən iyun-avqust aylarında ÖƏK-in fəaliyyəti çərçivəsində görülmüş işlər barədə, eyni zamanda, qrantın Əsas Resipiyenti olan Səhiyyə Nazirliyi, sub-resipiyent qurumlar olan Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi, Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən qrant çərçivəsində görülmüş işlər barədə təqdimatlar edilib, müzakirələr aparılıb.

# Azərbaycan – Türkmənistan səhiyyə əməkdaşlığı məsələləri müzakirə edilib

**Səhiyyə Nazirliyində Türkmənistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasovla tanışlıq xarakteri daşıyan görüş keçirilib.**

Qonaqları salamlayan **nazir Teymur Musayev** Qurbanməmmet Elyasovu Türkmənistanın ölkəmizdəki səfiri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. O, dövlət başçılarının mütəmadi görüşlərinin və əldə olunan razılaşmaların Azərbaycan-Türkmənistan münasibətlərini daha yüksək səviyyəyə qaldırdığını vurğulayıb.

Bir çox sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdiyini söyləyən Teymur Musayev milli səhiyyə müəssisələri arasında təcrübə mübadiləsi üçün böyük potensialın olduğunu deyib: «Səhiyyə siyasəti və ictimai səhiyyə sahəsində Türkmənistan ilə əməkdaşlığımız beynəlxalq müstəvidə – Ümumdünya Səhiyyə Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı səhiyyə nazirlərinin əməkdaşlığı çərçivəsində aparılır. Eyni zamanda, hazırda Azərbaycan Tibb Universitetində Türkmənistanın 6 vətəndaşı ali tibb təhsili alır».

**Qurbanməmmet Elyasovun** səhiyyə sahəsində böyük təcrübəyə malik olduğunu və Türkmənistanın səhiyyə və tibb sənayesi naziri vəzifəsində çalışdığı illəri xatırladan Teymur Musayev ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Öz növbəsində Qurbanməmmet Elyasov Türkmənistanın Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə xüsusi diqqət yetirdiyini qeyd edib. O, tibb təhsili sahəsində qarşılıqlı fəaliyyət, o cümlədən ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik məlumatların mübadiləsi üçün yeni imkanlar yaradılmasını bildirib.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları, eyni zamanda, post-COVID dövründə ölkələrimizin vətəndaşlarının sağlamlığının bərpası və reabilitasiyası məqsədilə sanatoriya-kurort xidmətlərinin təkmilləşdirilməsi müzakirə olunub.

# Litva səhiyyə nazirinin müavini ilə ATU-da görüş keçirilib

**Azərbaycanda səfərdə olan Litva səhiyyə nazirinin müavini xanım Ausra Bilotiene-Motiejuniene və Litvanın ölkəmizdəki səfiri Egidius Navikasla Azərbaycan Tibb Universitetində (ATU) görüş keçirilib.**



ATU-dan verilən məlumata görə, söhbət zamanı səhiyyə və tibb elmi sahəsində ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və inkişaf imkanları müzakirə olunub.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara universitet haqqında geniş məlumat verib. Tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməsi, universitetdə yeni açılan ixtisaslar, müasir laboratoriyalar haqqında məlumatlar maraqla qarşılanıb. Bildirilib ki, tələbə-müəllim mübadiləsi hər iki ölkə üçün faydalı olardı.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən xanım Ausra Bilotiene-Motiejuniene ölkəsinin Azərbaycanda tibb təhsili sisteminin beynəlxalq səviyyədə qəbul olunan standartlara uyğun modernləşdirilməsinə öz töhfəsini verməyə hazır olduğunu qeyd edib.

Nazir müavini xatırladıb ki, cari ilin may ayında Litvanın Sağlamlıq Elmləri Universiteti ilə ATU arasında Əməkdaşlıq Memorandumu imzalanıb: «İnanıram ki, bu sənəd ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə öz töhfəsini verəcək».

Eyni zamanda, görüşdə tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi məsələləri müzakirə edilib. Qonaqlar tələbə və müəllim mübadiləsi məsələsinə müsbət yanaşdıqlarını bildiriblər.

# Bakıda anesteziologiya-reanimatologiya üzrə beynəlxalq konfrans keçirilib

**Bakıda Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyəti, Türkiyə Anestezioloji və Reanimasyon Dərnəyinin birgə təşkilatçılığı, Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) dəstəyi ilə «Türkiyə-Azərbaycan anesteziologiya və reanimasiya, ağrı workshop günləri» adlı konfrans keçirilib.**





Azərbaycan Tibb Universitetinin (ATU) mətbuat xidməti bildirir ki, **Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin (AzRAC) sədri, professor İsfəndiyar İsmayılov** konfransın əhəmiyyətindən danışıb, tədbirin keçirilməsinə lazımi dəstək verdiyi üçün Səhiyyə Nazirliyinə, TƏBİB-ə, eləcə də Türkiyə Anestezioloji və Reanimasyon Dərnəyinin (TARD) rəhbəri, professor Meral Kanbaka dərin təşəkkürünü bildirib: «Bilirəm ki, Türkiyədən gələn nümayəndə heyəti maraqlı məruzələrlə çıxış edəcək, diskussiyalar aparacaq, master-klaslar keçəcək. Yerli mütəxəssislərimiz bu sahədə son yeniliklər, əldə olunan nailiyyətlər haqqında məlumatlı olmaq üçün konfransda böyük həvəslə iştirak edirlər».

Sonra **TARD-ın rəhbəri, professor Meral Kanbak** çıxış edib. O, aktual məsələləri özündə əks etdirən bu cür tədbirlərin mütəmadi keçirilməsinin, təcrübə və bilik mübadiləsi aparılmasının qardaş ölkələrin mütəxəssisləri üçün əhəmiyyət kəsb etdiyini vurğulayıb. Professor yüksək səviyyədə təşkil olunmuş bu tədbirin gənc mütəxəssislərin praktik təcrübəsinin artırılması və təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib.

**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı** iki qardaş ölkə arasında iqtisadi, mədəni, təhsil, tibb və digər sahələrdə əlaqələrin sıx olmasından və bu əlaqələrin günü-gündən daha da inkişaf etməsindən söhbət açıb. Səfir bu cür konfransların əhəmiyyətinə diqqət çəkib, iştirakçılara uğurlar arzulayıb.

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov** öz çıxışında Azərbaycan və Türkiyə tibb işçilərinin birgə tədbirlər keçirməsinin artıq gözəl ənənəyə çevrildiyini bildirib: «Anestezioloq-reanimatoloqların bu birgə konfransı təbabətin ən aktual problemlərindən birinə həsr olunub. Biz ilk konfransımızı 10 il öncə ATU-da keçirmişdik. Bugünkü tədbirin mövzusu barədə demək istəyirəm ki, COVID-19 dönəmində anesteziologiyanın təbabətdə nə dərəcədə vacib rol oynadığı bir daha göründü. İnkişaf etmiş Avropa ölkələrində COVID-19 dönəmində səhiyyə sistemi çökdü. Amma qardaş Türkiyədə və ölkəmizdə xəstələrin sayının kifayət qədər yüksək olmasına baxmayaraq, burada iştirak edən mütəxəssislərin də sayəsində onları intensiv terapiya şöbələrində yerləşdirə və müalicəsini apara bildik. Nəticədə, minlərlə, on minlərlə insan həyatı xilas edildi».

Akademik alqologiya sahəsində yaşanan problemlərə toxunaraq, ölkəmizdə bu sahəyə ehtiyacı olan insanların sayının günbəgün artdığını, lakin həmin insanların xidmətində dayanacaq kifayət qədər mütəxəssisin olmamasından təəssüfləndiyini bildirib. Amma yaxın illərdə türkiyəli mütəxəssislərin köməyi ilə ölkəmizdə də bu sahədə gənc mütəxəssislərin yetişəcəyinə ümidvar olduğunu deyib.

**Səhiyyə nazirinin müavini, dosent Nadir Zeynalov** da bu konfransın və ümumiyyətlə, anestezioloq-reanimatoloq peşəsinin əhəmiyyətindən söhbət açıb. O, müasir dövrdə keçirilən mürəkkəb cərrahiyyə əməliyyatlarının uğurunun anesteziologiya sahəsi ilə bilavasitə bağlı olduğunu bildirib. Pasiyentlərin intensiv terapiya nəticəsində qısa zamanda ayağa qalxması və sağlamlığına qovuşmasının anesteziologiya ilə əlaqəsinə diqqət çəkən nazir müavini konfransın proqramına aktual problemlərə toxunan məruzələrlə yanaşı, praktik təlimlərin də salınmasını təqdirəlayiq hal kimi qiymətləndirib. Yerli mütəxəssisləri bu fürsətdən yararlanmağa dəvət edən N.Zeynalov konfrans iştirakçılarına uğurlar arzulayıb.

Natiqlərdən TİKA-nın koordinatoru Fatih Yılmaz, TƏBİB-in şöbə müdiri Kəmalə Ağayeva, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, professor Rəşad Mahmudov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi planlama departamentinin rəhbəri Hikmət İbrahimli və başqaları bu sahədəki nailiyyətlər və bəzi çatışmazlıqlardan, eləcə də konfransın əhəmiyyətindən bəhs ediblər.

Səhiyyə Nazirliyinin baş anestezioloq-reanimatoloqu, Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəylinin verdiyi məlumata görə, konfransda iştirak etmək üçün Türkiyədən bu sahədə tanınmış 24 mütəxəssis gəlib. İ.Məhərrəmbəyli konfransın gedişində yerli mütəxəssislərin də çıxış etdiklərini və alqologiya sahəsinə xüsusi önəm verildiyini vurğulayıb: «Bu sahədə əldə edilmiş təcrübə əsas müzakirə mövzularından biri oldu. Əvvəllər bu ixtisaslara 2-ci, 3-cü dərəcəli ixtisas kimi baxırdılar. Amma COVID-19 pandemiyası dövründə bu sahənin nə dərəcədə əhəmiyyətli olduğunu hamı gördü. Bu sahənin inkişafına diqqətin artırılmasına zərurət yarandı. Elə bu konfransı da bu sahəyə diqqət, dəstək kimi qəbul etmək olar».




## Səhiyyə Nazirliyində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib

**2020-ci ildə Vətən müharibəsinin başlandığı gün ölkəmizdə Vətən müharibəsi şəhidlərinin anım günü kimi qeyd olunur.**

Anım günündə saat 12:00-da, bütün ölkədə olduğu kimi, Səhiyyə Nazirliyinin rəhbərliyi, kollegiya üzvləri və kollektivi Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev bildirib ki, Azərbaycanın qəhrəman övladları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində tariximizin ən şərəfli səhifələrindən birini yazdılar. T.Musayev 30 illik həsrətə şəhidlərimizin qanı, eyni zamanda, əsgər və zabitlərimizin döyüşlərdə göstərdiyi böyük fədakarlığı hesabına son qoyulduğunu vurğulayıb.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı hərbçilərimizə şəfa versin!

## Azərbaycan Otorinolarinqologiya Cəmiyyətinin 1-ci beynəlxalq konqresi keçirilib

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Azərbaycan Otorinolarinqologiya Cəmiyyəti, Mərkəzi və Qərbi Asiya Qulaq-burun-boğaz və Baş-boyun Cərrahiyyəsi Birliyinin təşkilatçılığı ilə Azərbaycan Otorinolarinqologiya Cəmiyyətinin 1-ci beynəlxalq konqresi keçirilib.**

Tədbirdə Azərbaycan, ABŞ, İtaliya, Rusiya Federasiyası, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistandan 350-yə yaxın otorinolarinqoloq iştirak edib.

Konqresin xarici qonaqları arasında Dünya Qulaq-burun-boğaz Cəmiyyətləri Konfederasiyasının eks-prezidenti, professor Desiderio Passali, İdarə Heyətinin üzvü, professor Metin Önerci, Mərkəzi və Qərbi Asiya Qulaq-burun-boğaz və Baş-boyun cərrahiyyəsi Birliyinin sədri, professor Vadim Nasırov, Türk Qulaq-burun-boğaz və Baş-boyun Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Tayfun Kirazlı, həmin cəmiyyətin baş katibi, professor Özgür Yiğit, Avropa Larinqologiya Cəmiyyətinin keçmiş sədri, professor Ferhan Öz, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Tacikistan Otorinolarinqologiya cəmiyyətlərinin sədrləri və digər tanınmış otorinolarinqoloqlar olub.

Elmi proqramı otorinolarinqologiyanın müxtəlif problemlərinə həsr olunmuş 4 kurs və 13 elmi paneldən ibarət olan ikigünlük konqresə ümumilikdə 65 məruzəçi öz elmi işini müzakirə olunmaq üçün təqdim edib.

Tədbirdə «Adenotonzillektomiyalarda müasir texnikalar», «Otorinolarinoloji patologiyalarda radioloji müayinələr», «Sensonevral eşitmə zəifliyi olan uşağa yanaşma», «Uşaqlarda eşitmə itkisi səbəbləri və həlli yolları», «Baş və boyun şişlərinə yanaşma», «Ani eşitmə itkisi», «Timpanoplastika texnikaları», «Xroniki sinusitlər və nazal polipoz», «Burun tənəffüs pozulmaları və yuxu apnoesi» və digər mövzularda panel iclasları keçirilib.

Məruzələrdə yeni növ koronavirus (COVID-19) pandemiyasının müxtəlif xroniki xəstəliklərə təsir etməsinə xüsusi diqqət yetirilib.




Konqresin yekununda iştirakçılara sertifikatlar təqdim olunub.

Azərbaycan Otorinolarinqologiya Cəmiyyətinin İdarə Heyətinin üzvü Ramin Həşimlinin sözlərinə görə, Cəmiyyətin konqreslərini iki ildən bir keçirmək qərara alınıb. Türkdilli ölkələrin Mərkəzi və Qərbi Asiya Qulaq-burun-boğaz və Baş-boyun Cərrahiyyəsi Cəmiyyətinin yığıncağının isə ən azı iki ildən bir müxtəlif ölkələrdə keçirilməsi nəzərdə tutulub.

## İlkin səhiyyə xidmətinin gücləndirilməsi layihəsi yerli səhiyyə tərəfdaşları ilə müzakirə olunub

**Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və Birləşmiş Millətlər Təşkilatının (BMT) Uşaq Fondunun (UNICEF) birgə həyata keçirəcəyi «İlkin səhiyyə xidmətinin gücləndirilməsi» layihəsinin yerli səhiyyə tərəfdaşları ilə müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və digər səhiyyə qurumlarının, eləcə də BMT-nin Azərbaycandakı nümayəndəliyi və Heydər Əliyev Fondunun təmsilçilərinin qatıldığı tədbir Azərbaycanda ilkin səhiyyə xidmətinin (İSX) gücləndirilməsi üzrə təşəbbüslərin növbəti illərdə də dəstəklənməsinə həsr olunub.

Toplantıda bildirilib ki, ÜST 2020-ci ilin mart ayından etibarən yerli səhiyyə qurumları, Şamaxı Rayon İcra Hakimiyyəti, UNICEF, BMT-nin Əhali Fondu və Heydər Əliyev Fondu ilə birlikdə Şamaxı rayonunda ilkin səhiyyə xidmətlərini gücləndirmək məqsədilə layihə həyata keçirir. Şamaxıda əldə edilmiş əhəmiyyətli nailiyyətlərə əsaslanaraq, Azərbaycanda İSX-nin gücləndirilməsi üzrə səyləri birləşdirmək üçün sözügedən layihənin həyata keçirilməsi planlaşdırılır.

9 milyon avro dəyərində olan layihənin məqsədi dayanıqlı İSX sistemi üçün səhiyyə siyasəti və idarəçiliyini gücləndirmək, ilkin səhiyyə xidmətində çalışan tibb işçilərinin bilik və bacarıqlarını inkişaf etdirmək üçün institusional imkanları genişləndirmək və seçilmiş rayonlarda prioritet ehtiyaclar üzrə ilkin səhiyyə xidmətlərini təkmilləşdirməkdir.

Bildirilib ki, güclü İSX insanların həyatını xilas edir və səhiyyə sistemlərinin hər kəs üçün daha yaxşı fəaliyyət göstərməsini təmin edir. ÜST və UNICEF yerli tərəfdaşlarla sıx əməkdaşlıqda səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi, həmçinin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsində Azərbaycana dəstək verən bir sıra layihələr həyata keçirməkdədir. Sözügedən yeni layihə Avropa İttifaqı, ÜST və UNICEF-in Azərbaycana davamlı dəstəyinin tərkib hissəsi olacaq.

Tədbirdə **ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı** deyib ki, səhiyyə işçilərinin iş potensialının artırılması vacibdir. Azərbaycanda 2023-cü ildən etibarən başlayacaq yeni layihəyə əsasən müəyyən ərazilər seçiləcək: «Bu ərazilərdə infrastrukturun gücləndirilməsi, xüsusilə qeyri-yoluxucu xəstəliklərdən əhalinin qorunması və xəstəliklərin daha tez müəyyən edilməsi layihənin əsas məqsədidir».

ÜST nümayəndəsi bildirib ki, layihə əsasən Azərbaycanın ucqar rayonlarında və paytaxtda həyata keçiriləcək: «Bunabənzər digər bir layihə Şamaxı rayonunda həyata keçirilib və olduqca uğurlu alınıb. Bizim əsas planımız isə daha ucqar ərazilərdə layihənin gerçəkləşdirilməsidir. Onu təxminən 5 rayonda keçirməyi planlaşdırırıq. Layihəni münaqişədən zərər çəkən ərazilərdə həyata keçirmək istəyirik. Layihəyə əsasən, səhiyyə işçiləri ehtiyaclara uyğun olaraq müəyyən kurslara cəlb olunacaq. Biz təlim keçəcək işçilərin potensialını artırmışıq. Həkimlərin təkmilləşdirilməsi üçün Azərbaycan Tibb Universiteti ilə birgə işləyirik».

«İlkin səhiyyə xidmətinin gücləndirilməsi» layihəsinə münasibət bildirərkən **Milli Məclisin Səhiyyə komitəsinin üzvü Soltan Məmmədov** vurğulayıb ki, səhiyyə sahəsində islahatlar aparılan bir məqamda ilkin səhiyyə xidmətinin inkişaf etdirilməsi səhiyyə sistemi üçün ən əsas komponentlərdən biridir. Onun sözlərinə görə, icbari tibbi sığortanın uğurlu tətbiqi və davamlı olaraq gücləndirilməsi, icbari tibbi sığortaya daxil olan xidmətlər zərfinin genişləndirilməsi, eyni zamanda, qanunvericilik bazasının təkmilləşdirilməsi üçün böyük işlər görülür. Deputat bildirib ki, bu gün hər birimizi maraqlandıran əsas məsələlərdən biri ilkin səhiyyə xidmətinin inkişafıdır: «Bu xidmət həm profilaktik tədbirlərin vaxtında həyata keçirilməsi, həm də növbəti addımlarda stasionar xidmətin təkmilləşdirilməsinə böyük töhfə verir».

**Səhiyyə nazirinin müavini Nadir Zeynalov** layihənin müzakirəsi ilə bağlı jurnalistlərə müsahibəsində deyib ki, ilkin səhiyyə xidməti təcili və təxirəsalınmaz halları istisna etmək şərtilə, vətəndaşların sağlamlıq problemləri ilə bağlı müraciət etdikləri ilk tibbi xidmət növüdür. Bu xidmət vətəndaşlara xəstəxanalara getmədən, daha qısa zamanda sağlamlıq problemlərini həll etmək imkanı yaradır.

Nazir müavini bildirib ki, ilkin səhiyyə xidmətinin profilaktik işinin də rolu böyükdür: «Müxtəlif xəstəliklərin qarşısının alınmasında, o cümlədən peyvəndlənmə prosesində bu xidmətin böyük əhəmiyyəti var. İlkin səhiyyə xidmətinin vacibliyi ÜST tərəfindən də vurğulanır. Bu xidmətin köməkliyi ilə xəstələr daha az xərclə, genişmiqyaslı nəticələr əldə edirlər».

Ölkəmizdə ilkin səhiyyə xidmətinin şəhər poliklinikaları, ailə sağlamlıq mərkəzləri, kənd həkim və kənd tibb məntəqələri tərəfindən həyata keçirildiyi barədə məlumat verən N.Zeynalov deyib: «Bu sahədə beynəlxalq tərəfdaşlarla bərabər həyata keçirdiyimiz layihələr səhiyyəmizin təkmilləşdirilməsi üçün vacibdir. ÜST-nin Azərbaycandakı nümayəndəliyi ölkəmizdə keçirəcəyi müxtəlif layihələr çərçivəsində ilkin səhiyyə xidmətinə böyük töhfələr verir. Bu, vətəndaşlara daha yüksək keyfiyyətli xidmətin göstərilməsinə şərait yaradır».

Səhiyyə nazirinin müavini vurğulayıb ki, beynəlxalq təcrübədən istifadə etməklə biz ölkə ərazisinin ucqar bölgələrində də ilkin səhiyyə xidmətinin inkişafını təmin edəcəyik.

Öz növbəsində, **TƏBİB-in Tibbi fəaliyyətin təşkili departamentinin rəhbəri Teymur Mirzəbəyli** jurnalistlərə müsahibəsində deyib ki, Şamaxıda həyata keçirilən layihə çərçivəsində ölkədə ilkin səhiyyə xidmətləri beynəlxalq təşkilatların təcrübəsinə istinadla tətbiq edilib. Bu təcrübələrin müsbət nəticələrinin Azərbaycanın digər ərazilərində də tətbiq olunması planlaşdırılır.

O qeyd edib ki, layihənin məqsədi ərazilərdə ilkin səhiyyə xidmətinin yaradılmasına və inkişaf etdirilməsinə dəstək, eləcə də səhiyyə işçilərinin bilik və bacarıqlarının beynəlxalq səviyyəyə çatdırılmasıdır. Ölkənin ucqar bölgələrində kadr çatışmazlığının olduğunu deyən TƏBİB rəsmisi təhsilini bitirən həkimlərin rayonlara işə cəlb olunması istiqamətində müəyyən tədbirlərin həyata keçiriləcəyini söyləyib: «Eyni zamanda, həkimlərin iş şəraitinin yaxşılaşdırılmasını, onların bilik və bacarıqlarının artırılmasını, davamlı tibbi təhsilə cəlb olunmasını planlaşdırırıq».

# ÜST-nin Qiymətləndirmə Missiyası bir sıra səhiyyə və tibb təhsili müəssisələrində olub

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan səhiyyəsində islahatlara dəstək baxımından ehtiyacların qiymətləndirilməsi, ilkin səhiyyə, xəstəxana xidmətləri və tibb işçiləri üçün təlimlər sahəsində dəstəyə ehtiyac olan istiqamətlərin müəyyənləşdirilməsi məqsədilə ölkəmizə göndərdiyi Qiymətləndirmə Missiyası burada bir sıra səhiyyə və tibb təhsili müəssisələrində olub.**



Ekspertlərdən ibarət nümayəndə heyəti ilə **Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda** (ADHTİ) görüş keçirilib.

ADHTİ-dən verilən məlumata görə, **İnstitutun rektoru professor Nazim Qasımov** qonaqları salamlayaraq bildirib ki, ÜST ilə qarşılıqlı əməkdaşlıq şəraitində ölkəmizdə mühüm işlər görülüb, uğurlu layihələr həyata keçirilib:

«Təşkilatın Azərbaycan üzrə nümayəndəliyi səhiyyənin təkmilləşdirilməsi işində Səhiyyə Nazirliyi və yerli icra strukturları ilə birgə fəaliyyət göstərib».

Görüş zamanı ÜST-nin Avropa ofisi və Azərbaycan üzrə nümayəndəliyinin səhiyyədə insan resursları, ilkin səhiyyə xidməti, tibb bacısı siyasəti və xəstəxanalar istiqamətində gördüyü işlər haqqında fikir mübadiləsi aparılıb.

ADHTİ-də ailə həkimi ixtisası və rezidentura təhsilinin təşkili məsələləri müzakirə olunub.

Qonaqlar institutda aparılan tədris, elmi və kliniki işlərlə yaxından tanış olaraq, tədris bazasının fəaliyyətini izləyiblər.

ÜST-nin Qiymətləndirmə Missiyasının nümayəndə heyəti Azərbaycan Tibb Universitetində (ATU) də olub.

Universitetin mətbuat xidmətindən bildirilib ki, qonaqlarla görüşdə **ATU-nun rektoru, professor Gəray Gəraybəyli** ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb. COVID-19-la mübarizədə ölkə daxilində görülən işlər, Azərbaycanın başqa dövlətlərə göstərdiyi yardımlar və irəli sürdüyü təşəbbüslər yada salınıb, bu istiqamətdə Azərbaycanın nailiyyətlərinin ÜST-nin baş direktoru Tedros Gebreyesus tərəfindən də yüksək qiymətləndirildiyi vurğulanıb.

Eləcə də daha əvvəl keçirilən görüşün nəticələri müzakirə olunub, işçi qrupu təsdiqlənib.

**ÜST-nin ölkəmizdəki nümayəndəliyinin əməkdaşı Halil İbrahim Durak** qeyd edib ki, son illərdə Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi məqsədilə islahatlar aparılıb, insanların tibbi xidmətlərlə hərtərəfli əhatə olunması istiqamətində mühüm işlər görülüb. ÜST-nin Qiymətləndirmə Missiyasının əsas məqsədi Azərbaycanda tibb işçilərinin inkişafı, ölkənin səhiyyə sisteminin dayanıqlılığının artırılması, ilkin səhiyyə xidməti sahəsində uğurlu planlaşdırmanın təmini, xəstəxana sisteminin effektiv idarəedilməsi, tibbi tədrisin tətbiqi, eləcə də kadrlar şöbələrinin fəaliyyətlərinin gücləndirilməsindən ibarətdir.

Qonaqlar universitetin Tədris Cərrahiyyə Klinikasının fəaliyyəti ilə də yaxından tanış olublar.

Nümayəndə heyəti ilə **1 nömrəli Bakı Tibb Kollecində** də görüş keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, **kollecin direktoru Nailə Əliyeva** qonaqlara yüksək ixtisaslı orta tibb kadrlarının hazırlanmasında təhsil müəssisəsinin fəaliyyəti və qarşıda duran məsələlər barədə məlumat verib.

Görüşdə ÜST ekspertləri tibb bacısı peşəsinə dair səhiyyədə insan resursları üzrə qısa, orta və uzun müddətli fəaliyyət və gələcək planlaşdırma tədbirləri barədə tövsiyələri səsləndiriblər.

Missiya üzvlərinin fəaliyyəti ilə tanış olduqları daha bir tibb təhsili müəssisəsi **2 nömrəli Bakı Baza Tibb Kolleci** olub.



Nümayəndə heyəti ilə görüş zamanı Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi və universal tibbi təminata nail olunması məsələləri müzakirə olunub.

**Kollecin direktoru Dilarə Məmmədəliyeva** təhsil müəssisəsinin fəaliyyəti, orta tibb kadrlarının hazırlanması və qarşıda duran məsələlər haqqında məlumat verib.

Sonra qonaqlar kollecin simulyasiontəlim və «Təməl həyat dəstəyi» təlim mərkəzləri ilə tanış olublar.

ÜST-nin ekspert missiyası səfər çərçivəsində **Şamaxı rayonunda** olub. Təşkilatın Şamaxıda həyata keçirdiyi digər təşəbbüs – İlkin səhiyyə xidmətinin təşkilinə dair nümayiş layihəsi çərçivəsində görülən işlər və əldə edilən nəticələr nümayəndə heyətinə təqdim edilib.

ÜST-nin Azərbaycandakı nümayəndəliyindən bildirildiyinə görə, görüşdə ÜST ekspertlərinin layihə əsasında yaradılan yeni ilkin səhiyyə modelinə dair tövsiyələri müzakirə edilib.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədovla da görüşən ÜST nümayəndələri rayondakı səhiyyə qurumları ilə gələcək əməkdaşlıq planları barədə məlumat veriblər.

Qonaqlar səhiyyə müəssisələrinin imkanları və ehtiyacları barədə məlumat almaq üçün Göylər və Mədrəsə kənd həkim məntəqələrini, Şamaxı Rayon Mərkəzi Xəstəxanasını və Müalicə Diaqnostika Mərkəzini ziyarət ediblər.

Ümumdünya Səhiyyə Təşkilatının 5 günlük ekspert missiyası Azərbaycandakı işini 57 səhiyyə işçisinin qatıldığı müzakirə ilə tamamlayıb.

Səhiyyə Nazirliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), ATU-nun, ADHTİ-nin, Bakıda və bölgələrdə yerləşən tibb kollec və müəssisələrinin təmsilçilərinin, eyni zamanda, ÜST və UNICEF ekspertlərinin qatıldığı yekun tədbirdə ölkənin səhiyyə ehtiyacları və onların effektiv həlli yolları müzakirə edilib.

Missiyanın ölkədəki görüşləri və səhiyyə müəssisələrindəki qiymətləndirmələri ilə yanaşı, müzakirənin nəticələri də ÜST-nin Azərbaycanın səhiyyə sisteminin transformasiyası və gücləndirilməsi səylərini ən effektiv şəkildə necə dəstəkləməyə dair planlamasında əsas məlumat mənbəyi rolunu oynayacaq.

# Dərman və vaksinlərin əlavə təsirləri aşkarlanıbsa, nə etməli?

**Bu il yanvar ayının 1-dən avqustun 31-nə qədər Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin (AEM) Farmakonəzarət şöbəsinə dərman vasitələri və vaksinlərin əlavə təsirləri haqqında 115 bildiriş daxil olub. AEM-in mətbuat xidmətindən bildirilib ki, göndərilən bildirişlərin 46-sı tibb işçiləri, 68-i əczaçılıq şirkətləri və cəmi biri pasiyentlərin payına düşür.**

Xatırladaq ki, Analitik Ekspertiza Mərkəzi tərəfindən dərman vasitələri və vaksinlərin istifadəsi zamanı yaranan əlavə təsirlər haqqında bildirişlərin (məlumatların) onlayn şəkildə ötürülməsi üçün görülən işlər hələ ötən ilin sonunda başa çatdırılıb. Onlayn portal vasitəsilə pasiyentlər, pasiyent yaxınları və tibb işçiləri dərman vasitələri və vaksinlərin istifadəsi zamanı yaranan əlavə təsirlər barədə məlumatları daha rahat şəkildə ötürə bilirlər.



Sistem işə başlayan zaman bildirilib ki, AEM Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Beynəlxalq Dərman Monitorinqi Proqramı ilə əməkdaşlığını davam etdirir.

Bu əməkdaşlıq çərçivəsində Mərkəz dərman vasitələrinin təhlükəsiz istifadəsinin təmin edilməsi məqsədilə əlavə təsirlərin və fayda-risk nisbətlərinin sistemli bir şəkildə izlənməsi, bunun üçün məlumatın toplanması, qeydiyyata alınması və qiymətləndirilməsi istiqamətində fəaliyyət göstərir. Sistemin əsası ÜST-nin Beynəlxalq Dərman Monitorinqi Mərkəzi tərəfindən hazırlanıb və burada təqdim edilən məlumatlar ÜST-nin əlavə təsirlər haqqında qlobal informasiya bazasına ötürüləcək. Əlavə təsirləri müəyyən etmək və dərman vasitəsinin istifadəsini mümkün olduğu qədər təhlükəsiz etmək məqsədilə prosesə AEM tərəfindən nəzarət ediləcək.

Vətəndaşlar onlayn bildirişlərin ötürülməsi üçün https:primaryreporting.who-umc.orgaz linkindən istifadə edərək və ya QR kodu telefon vasitəsilə oxudaraq keçid əldə edə bilərlər.

AEM-in mətbuat xidmətindən bildirilib ki, sistemin bir ilə yaxındır ki, işləməsinə baxmayaraq, daxil olan müraciətlərin sayının çox olmamasını nəzərə alaraq, vətəndaşların, xüsusən də pasiyentlərin bu sahədə aktivliyini artırmaq üçün saytda onlayn portaldan istifadəni daha da asanlaşdırmaq məqsədilə təlimat videoçarxı da yerləşdirilib.

# Ümumdünya Ürək Günü qeyd edilib

**Sentyabrın 29-u qlobal miqyasda Ümumdünya Ürək Günü kimi qeyd olunur.**

Ölkəmizdə də bu gün hər il müxtəlif tədbirlərlə qeyd edilir, ürək-damar xəstəliklərindən qorunmaq üçün əhali arasında geniş təbliğat aparılır.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) və Azərbaycan Tibb Universitetinin (ATU) təşkilatçılığı, «Marsol» MMC və «Özsüt» restoranlar şəbəkəsinin əməkdaşlığı ilə Ümumdünya Ürək Gününə həsr olunan aksiya keçirilib.

Qış parkında təşkil olunan aksiya çərçivəsində iştirakçılar ilkin müayinələrə (boy, çəki, qan təzyiqi və nəbzin ölçülməsi, EKQ müayinəsi) dəvət edilib, onlara kardioloqlar və digər ixtisas həkimləri, ictimai səhiyyə mütəxəssisləri tərəfindən tövsiyələr verilib.

Aksiyada, eyni zamanda, «Sağlam qida» guşəsi təqdim olunub, iştirakçılara düzgün və balanslı qidalanma ilə bağlı məlumat verilib. Tütünçəkmə və digər zərərli vərdişlərdən uzaq olmaq, sağlam həyat tərzi seçmək təşviq edilib. Bu mövzulara dair maarifləndirici materiallar paylanılıb.

Statistik məlumatlara görə, hazırda ürək-damar xəstəlikləri dünyada ölümün və əlilliyin əsas səbəblərindən biridir və yer üzündə hər il 17 milyondan çox insanın həyatına son qoyur. Son vaxtlar ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin sayının çoxalması bir sıra amillərlə bağlıdır. Əsas risk amillərinə yüksək qan təzyiqi, qanda xolesterin və şəkərin miqdarının artması, tütünçəkmə, fiziki passivlik, spirtli içkilərdən istifadə, psixoloji stres, artıq çəki, piylənmə və qeyri-sağlam qidalanma aiddir.




Ümumdünya Ürək Günü ilə əlaqədar Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti də ürək sağlamlığına cəmiyyətin diqqətini çəkmək, bu sahədə maarifləndirmə işləri aparmaq məqsədi ilə, hər il olduğu kimi, silsilə tədbirlər həyata keçirib.

Belə ki, yerli və beynəlxalq mütəxəssislərin iştirakı ilə həmin günə həsr olunmuş Ürək-damar Xəstəlikləri Beynəlxalq Konqresi keçirilib. Hibrid formatda baş tutan konqres cəmiyyətin sosial media kanallarından canlı yayımlanıb.

Konqres çərçivəsində rezident və gənc həkimlər üçün praktiki kurslar, təcrübə məşğələləri təşkil olunub.

Həmçinin Qocalar evində məskunlaşmış ahılların və uşaq evindəki kimsəsiz uşaqların tibbi müayinə aksiyası baş tutub. Ürək sağlamlığının təbliği məqsədilə həkimlərlə idman jurnalistləri arasında futbol oyunu keçirilib.

Ürək-damar Xəstəlikləri Beynəlxalq Konqresi Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən davamlı tibbi təhsil verən tədbir kimi tanınıb və konqresə 16 kredit balı verilib.

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) ilə «Marsol» Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) arasında əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə memorandum imzalanıb.**

# İSİM və «Marsol» MMC arasında memorandum imzalanıb

İSİM-dən verilən məlumata görə, sənəd İSİM və «Marsol» MMC arasında ikitərəfli əməkdaşlığın çərçivələrini müəyyən edib. Memorandumu İSİM-in direktoru Qəhrəman Haqverdiyev və «Marsol» MMC-nin direktoru Tural Mustafayev imzalayıblar.

Memorandumun imzalanmasında məqsəd səhiyyə və qeyri-səhiyyə sektorunda beynəlxalq, dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi, yeni əlaqələrin qurulması və inkişaf etdirilməsidir. Tərəflərin əməkdaşlığı sayəsində tibbi profilaktika tədbirlərinin həcminin artırılması, sağlam həyat tərzinin təbliği, əhalinin sağlamlığının qorunması üzrə innovativ layihələrin, tədbirlərin, forumların təşkili, korporativ sosial münasibətlərin inkişafı istiqamətində təkliflərin hazırlanması və birgə həyata keçirilməsi nəzərdə tutulur.

# 50 ildən sonra görüş

**Bu günlərdə ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən olan Azərbaycan Tibb Universitetində həmin universiteti — ovaxtkı Azərbaycan Dövlət Tibb İnstitutunu 1972-ci ildə bitirmiş məzunların görüş-toplantısı keçirilib.**

Tədbir ilkin olaraq universitet şəhərciyində ATU-nun Vətən müharibəsində şəhid olmuş tələbə və məzunlarının xatirəsinə ucadılmış abidənin ziyarət edilməsi və 1972-ci il məzunları adından əklil qoyulması ilə başlanıb. Tədbir iştirakçıları abidə önünə qərənfillər düzüblər.

Sonra toplantı ATU-nun Anatomiya korpusu kimi tanınan 3 saylı tədris korpusunda, görüşə toplanmış məzunların düz 56 il əvvəl, yəni 1966-cı ilin sentyabr ayının 1-də ilk dərs keçdikləri zalda — Anatomiya kafedrasının məşhur yarımdairəvi auditoriyasında davam etdirilib. Həmin məzunlara məhz həmin vaxt — I kursda anatomiya dərsi demiş professor Rafiq Əsgərovun və hazırda Anatomiya kafedrasında çalışan professor Mübariz Allahverdiyevin tədbirə qatılması iştirakçılara xüsusi kövrək məqamlar yaşadıb.

Toplantıda əvvəlcə Qarabağ müharibəsində, eləcə də son günlərdə düşmən təxribatının qarşısının alınması zamanı şəhid olmuş əsgər və zabitlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev ATU-nun rektoru, professor Gəray Gəraybəylinin toplantı iştirakçılarına ünvanladığı təbriki çatdırıb. O həmçinin toplantıda iştirak edən ixtisasca həkim olan millət vəkilləri Musa Quliyev və Sədaqət Vəliyevanı salamlayıb.

Prorektor son illərdə ATU-nun yüksək nailiyyətləri, o cümlədən ötən il Beynəlxalq Seritifikasiya Komissiyasından müvəffəqiyyətlə keçməsi barədə məlumat verib, bugünki tədbirin də tələbələr arasında ruh yüksəkliyinə səbəb olacağına əminliyini bildirib. O, «Doğma ali məktəbinizə xoş gəlmisiniz» deyərək, 1972-ci il məzunlarını salamlayıb.

Söz tədbirin keçirilməsi üçün həmin ilin məzunlardan yaradılmış Təşkilat qrupunun rəhbəri, I Qarabağ müharibəsi veteranı, Əməkdar həkim, ATU-nun dosenti Taryel Eyvazova verilib.




T.Eyvazov ilk növbədə Təşkilat qrupunun müraciətinə yüksək diqqət göstərən universitet rəhbərliyinə, toplantıda iştirak edən, vaxtilə bu məzunlara dərs demiş müəllimlərə və qonaqlara məzunlar adından təşəkkürünü bildirib. O qeyd edib ki, 1972-ci ildə Tibb İnstitutunu cəmi 930 nəfər bitirərək həkim ixtisasına yiyələnib. Onlardan 18 nəfəri elmlər doktoru, 44 nəfəri elmlər namizədi, onlarla Əməkdar həkim, müxtəlif medallarla təltif olunanlar var: «Məzunlar arasında səhiyyə nazirinin müavini, Bakı Baş Səhiyyə İdarəsinin (BBSİ) rəisi, elmi tədqiqat mərkəzinin rəhbəri, kafedra müdirləri, rayonlarımızda səhiyyə şöbələrinin rəhbərləri və s. vəzifələrdə işləyənlərimiz olub və hazırda da vardır. Bu toplantıda hazırda ölkəmizin, demək olar ki, bütün bölgələrindən 150 nəfərə yaxın məzun iştirak edir. Ancaq təəssüf hissi ilə bildirirəm ki, tələbə yoldaşlarımız arasında dünyasını dəyişənlər də var. Biz onların, eləcə də rəhmətə gedən müəllimlərimizin əziz xatirəsini daim hörmətlə yad edirik». Təşkilat qrupunun rəhbəri görüşdə iştirak edən bütün iştirakçıları əhatə edəcək «Xatirə kitabı»nın da hazırlanacağını bildirib.

Toplantıda məzunlardan Əməkdar elm xadimi, professor Qalib Qarayev, BBSİ-nin sabiq rəisi, Əməkdar həkim Elmira Əliyeva, «Tərəqqi» medalı mükafatçısı Məhəbbət Qəmbərova, hazırda Moskva şəhərində həkim işləyən Nailə Ələkbərova, Naxçıvandan gəlmiş Ələkbər Zeynili, həkim şair-publisist Zakir Ağdamlı, Şəkidən Əməkdar həkim Kifayət Həmidova və başqaları çıxış edərək, bu günün sevinc və həyəcanının ömür boyu yaddan çıxmayacağını deyib, görüşün təşkilatçılarına və universitet rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

Toplantının ən maraqlı, yadda qalan və məzunlar üçün təsirli hissələrindən biri də sonda ağ xalatlı üç nəfər hazırkı tələbənin məzunları yüksək səviyyədə təbrik etməleri olub. Sonda hamı bir araya gələrək xatirə şəkli çəkdirib.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu

Nevrologiya bölməsi, kiçik elmi işçi - 2.0
Terapiya bölməsi, böyük elmi işçi - 0.5
Kliniki-neyrofizioloji laboratoriya, kiçik elmi işçi - 1.0
Balneofizioterapiya bölməsi, böyük elmi işçi - 0.5

*Ünvan: Xətai pr.,3*
*Telefon: 496-07-06*

### Qobustan Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Koroğlu küç.*
*Telefon: (020245) 5-28-46*

### Nizami Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Q.Qarayev küç., 74*
*Telefon: 323-73-38*

### Göygöl şəhəri Kardiorevmatoloji Sanatoriyası

Tibb bacısı (qardaşı) - 8.0 (kardiologiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (fizioterapiya şöbəsi)
Masaj üzrə tibb bacısı (qardaşı) -1.0 (fizioterapiya şöbəsi)
Laborant -1.0 (laboratoriya şöbəsi)
Əczaçı -1.0

*Ünvan: Göygöl şəhəri, Hummel küç., 42*
*Telefon: (02220) 5-31-70*

### «Bakı Şəhər Dezinfeksiya Mərkəzi» PHŞ

Təlimatçı dezinfektor - 5.0
Feldşer - 1.0
Tibbi-statistik - 1.0
Feldşer-laborant - 1.0
Sanitar-feldşer - 1.0

*Ünvan: F.İbrahimbəyov küç., 19/21*
*Telefon: 594-70-08*

### Nəsimi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0

*Ünvan: K.Səfərəliyeva küç., 43 d*
*Telefon: 440-42-84*

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
Rentgen-texnik - 1.0
Tibbi-statistik - 1.0
Əczaçı - 1.0
Laborant - 1.0
Psixoloq - 1.0

*Ünvan: Sabunçu ray., Maştağa qəs., Axund Şeyx Hüseyn küç., 71*
*Telefon: 558-75-16*

### Respublika QİÇS-lə Mübarizə Mərkəzi

Əczaçı - 1.0
Feldşer-laborant - 1.0 (Şəki regional laboratoriyası)

*Ünvan: Mir Qasımov küç., 18*
*Telefon: 594-73-53*

### Respublika Psixiatriya Xəstəxanası PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Rentgen-texnik - 1.0
Psixoloq - 2.0
Sosioloq - 2.0

*Ünvan: Şeyx Hüseyn küç., 69/71*
*Telefon: 455 - 10 - 91*

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasının müdiri (dosent t.ü.f.d.)
Mərkəzi Elmi Tədqiqat Laboratoriyasının (Hemodializ) müdiri (t.ü.e.d.)
Terapiya kafedrasının professoru (t.ü.e.d., professor)
Terapiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Ümumi və plastik cərrahiyyə kafedrasının dosenti (t.ü.f.d., dosent)
Ailə təbabəti kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının assistenti (t.ü.f.d.)
Mamalıq və ginekologiya kafedrasının assistenti (t.ü.f.d.)
Mamalıq və ginekologiya kafedrasının assistenti
Nevrologiya və klinik neyrofiziologiya kafedrasının assistenti
Anesteziologiya və reanimatologiya kafedrasının assistenti (t.ü.f.d.)

*Ünvan: Tbilisi pr., 3165-ci məh.*
*Telefon: 431-01-82*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 230-cu otaq
Tel./fak: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065
Tiraj: 9650